## AZƏRBAYCAN DİLİ

***1-5-ci suallar mətn əsasında hazırlanmışdır.***




**I.** Dünya mədəniyyətinin yaranma tarixi cəmiyyətin formalaşması ilə eyni dövrə təsadüf edir. Hələ min illər bundan öncə ibtidai insan özü də fərqində olmadan rəssamlıq, musiqi, ☆ ədəbiyyat, teatr kimi incəsənət növlərinin ilkin rüşeymlərini yaratmışdır. Cəmiyyət inkişaf etdikcə bu sənət sahələri də təkmilləşərək, cilalana-cilalana günümüzə qədər gəlib çıxmışdır.

**II.** Bu gün sürətli şəkildə inkişaf edən və ən geniş yayılmış sənət növlərindən biri də kinodur. Elm və texnikanın inkişafı ilə bağlı olduğundan bu sahə incəsənətin nisbətən gənc sahələrindən hesab edilir. ♡ Belə ki, kinonun yaranma tarixi 1895-ci il dekabrın 28-də Parisdə Lümyer qardaşları tərəfindən çəkilmiş kinosüjetlərın ilk nümayişindən başlayır.

**III.** Azərbaycan xalqı əsrlər boyu dünya mədəniyyətinin inkişafı və mədəni sivilizasiya ilə sıx bağlıdır. Bunun göstəricisi isə dünyada kino yarandıqdan qısa müddət sonra ölkəmizdə çəkilən filmlərdir. 1898-ci ildə fransız əsilli fotoqraf və kinooperator Aleksandr Mişon tərəfindən ilk dəfə Azərbaycanda yerli mövzuda "Bibiheybətdə neft fontanı yanğını", "İlişdin", "Qafqaz rəqsi", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi" kimi bir neçə sənədli kinosüjetlər çəkilməyə başlamışdır. ☾ Bununla da Azərbaycan kinematoqrafiyasının *əsası qoyulmuşdur*. Dünyada kino sahəsinə külli-miqdarda pullar ☺ ayrılır və bu sahədən qazanc əldə edilir. Həmin il avqustun 2-də bu filmlər xüsusi təşkil olunmuş kinoseansda tamaşaçılara nümayiş etdirilmişdir.

**IV.** 1988-ci ildə "Azərbaycanfilm"in nəzdindəki xronikal-sənədli filmlər birliyinin bazasında 3 studiya – "Salnamə", "Yaddaş" və "Rakurs" təşkil olunmuşdur. Bu studiyalarda milli-mənəvi dəyərlərimizə, tarix-mədəniyyət abidələrimizə, adət-ənənələrimizə, tarixi şəxsiyyətlərimizə və s. həsr olunmuş yüzlərlə sənədli film istehsal edilmişdir.



**1. Altından düz xətt çəkilmiş sözün mənasını və həmin mənaya uyğun nümunəni müəyyən edin.**

A) Həqiqi mənalıdır; Neçə illər bundan əvvəl səpilmiş maarifçilik toxumları artıq öz rüşeymlərini yaratmışdır.
B) Məcazi mənalıdır; Sünbülün rüşeymləri göyərirdi.
C) Həqiqi mənalıdır; Qarğıdalı dəninin rüşeymləri göyərirdi.
D) Məcazi mənalıdır; Azadlıq toxumlarının ilk rüşeymləri əmələ gəlməyə başlamışdır.

**2. Mətnə əsasən Klasteri tamamlayın:**




1. Tarixi şəxsiyyətlərimiz
2. Xalqımızın əzablı həyatı
3. Mədəniyyət abidələrimiz
4. Əkin sahələrimiz
5. Milli-mənəvi dəyərlərimiz

A) 1, 3, 4    B) 2, 3, 5
C) 1, 2, 4    D) 1, 3, 5

**3. Altından dalğalı xətt çəkilmiş hansı cümlə mətnin məzmunu ilə bağlı deyil?**

A) Cəmiyyət inkişaf etdikcə sənət sahələri də təkmilləşərək, cilalana-cilalana günümüzə qədər gəlib çıxmışdır.
B) Elm və texnikanın inkişafı ilə bağlı olduğundan bu sahə incəsənətin nisbətən gənc sahələrindən hesab edilir.
C) Azərbaycan xalqının əsrlər boyu dünya mədəniyyətinin inkişafı və mədəni sivilizasiya ilə sıx bağlıdır.
D) Dünyada kino sahəsinə külli-miqdarda pullar ayrılır və bu sahədən qazanc əldə edilir.

**4. Mətnin I abzasına əsasən verilmiş *yanlış* fikir:**

A) İnsan yarandığı dövrdən incəsənətdən kənarda yaşamamışdır.
B) İnsan yaranmadıqca heç bir mədəniyyət formalaşa bilməz.
C) İnsanların təkmilləşməsi müxtəlif sənət sahələrinin yaranmasına gətirib çıxarır.
D) İbtidai insanın şüurlu formada yaratdığı incəsənət sahələri bu gün də inkişaf edir.

**5. Aşağıda verilmiş cümlə işarələnmiş hansı hissəyə uyğun gəlir?**
*Azərbaycan kinosu yaranandan bir qədər sonra digər janr və növlər kimi, uşaq kinosu və digər sahələr də kino işçilərinin diqqət mərkəzində olmuşdur.*

A) ☆ B) ☾ C) ☺ D) ♡

**6. Fonetik dəyişikliyin sayına görə uyğunlaşdırın.**

*1. təmizkarlıq* *2. qarlı*
*3. sehrlənmək* *4. qonaqsevərlik*

a. namizəd b. üççildlik
c. sənətkarlıqla d. fıstıq

A) 1-b; 2-a; 3-d; 4-c B) 1-b; 2-a; 3-c; 4-d
C) 1-d; 2-a; 3-b; 4-c D) 1-d; 2-a; 3-c; 4-b

**7. Tərkibində “ki” olan cümlələrlə bağlı *doğru* fikri müəyyən edin.**
*I. Sənin ki bundan xəbərin yoxdur.*
*II. Yollamışam ki, gəlib götürəsən.*
*III. Bu gün evdəki planları heç kimə demədim.*
1. Hər üç cümlədə köməkçi nitq hissəsidir.
2. I cümlədə fikrin təsir gücünü artırır.
3. II cümlədə mürəkkəb cümlənin tərəflərini birləşdirir.
4. III cümlədə zərf yaradan leksik şəkilçidir.
5. I və II cümlədə mürəkkəb cümlə yaradır.

A) 1, 2, 5 B) 2, 3 C) 2, 3, 5 D) 1, 4

**8. Uyğunlaşdırın:**
1. Feili sifət 2. Feildən düzələn sifət

a. yatan b. qaçırılmış c. sürüşkən
d. dərindən e. bilərkən f. unutqan

A) 1-a, b, e; 2-c, d, f B) 1-a, b; 2-c, f
C) 1-b, c, e; 2-d, f D) 1-c, d; 2-a, b, f

**9.** *“Biz onu tanıdıqca daha çox sevirdik”* **cümləsində altından xətt çəkilmiş sözün tərkibi:**
A) kök, leksik, qrammatik
B) kök, leksik
C) kök, qrammatik, qrammatik
D) kök, qrammatik

**10. Omonimliyi olan sözlə başlayıb çoxmənalı sözlə bitən cümləni müəyyən edin.**
A) Saz ifa etməyə olan marağı ona xüsusi ilham verirdi.
B) Yad eldə yaşamağın çətinliyindən gileylənirdi.
C) Qəlbindən keçənləri bir-bir kağıza köçürdü.
D) Çətin günün ömrü az olar.

## RİYAZİYYAT

**1.** $|BC|=|EC|=|DB|$ , $x=?$




A) 30° B) 35° C) 40° D) 45°

**2.** a-nın b-yə nisbəti $\frac{2}{5}$, c-nin d-yə nisbəti $\frac{3}{7}$ olarsa, $\frac{a\cdot d}{b\cdot c}=?$

A) $\frac{7}{5}$ B) $\frac{6}{35}$ C) $\frac{15}{14}$ D) $\frac{14}{15}$

**3.** $\dfrac{1+\frac{1}{x}}{1-\frac{1}{x}}=1:\frac{1}{2}+2$ olarsa, x=?

A) 2 B) 1 C) $\frac{7}{3}$ D) $\frac{5}{3}$

**4.** $\begin{cases}2m-n=-2\\3m-2n=-3\end{cases}$ olarsa, $m=?$

A) -3 B) -2 C) -1 D) 1

**5.** Aşağıdakı şəkildə
- A, O, D nöqtələri eyni düz xətt üzərindədirlər;
- $\angle BOC=\angle COD$;
- $\angle AOB=102°$.




$\angle COD=?$

A) 78° B) 60° C) 45° D) 39°

**6.** Aşağıdakı şəkil xətlərdən qatlanaraq kub şəklinə gətirilsə, “5” rəqəminin qonşuları (bitişik üzlərində yazılan rəqəmlər) cəmi aşağıdakılardan hansı olar?




A) 19 B) 20 C) 21 D) 25

**7.** Samir elektron saatın tabloda görünən rəqəmlərini toplamağı sevir. Məsələn, saat 21:17-ni göstərdikdə, onun rəqəmləri cəmi 11 olur. Bu cəm ən çox neçə ola bilər?

A) 19 B) 23 C) 24 D) 25

**8.** Aşağıdakı cədvəldə Aynur, Emil və Maralın məntiq imtahanında eyni beş suala verdikləri cavablar və doğru cavablarının sayı göstərilmişdir. Hər bir sualın A, B, C, D, E - beş cavab bəndi vardır.

| | Suallar | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | Doğru cavab-ların sayı |
| Aynur | C | D | E | A | B | 3 |
| Emil | B | D | A | E | B | 0 |
| Maral | C | A | B | E | D | 3 |

Maralın səhv cavablandırdığı suallar hansılardır?

A) 1 və 2 B) 2 və 3 C) 2 və 4 D) 3 və 4

**9.** Riyaziyyat imtahanında şagirdlərə 40 sual təqdim edilmişdir. Hər bir doğru cavablandırılmış sual üçün 5 xal verilir, hər bir səhv cavablandırılmış sual üçün 2 xal çıxılır. Cavablandırılmamış hər bir sual üçün sıfır xal verilir. Zahid bu imtahanda 96 xal topladığına görə ən az neçə sualı cavablandırmamış ola bilər?

A) 0 B) 2 C) 4 D) 5

**10.** Eyniölçülü 27 kiçik kubdan əmələ gələn 3x3x3 ölçülü böyük kubun bütün üzləri qırmızı rəngə boyandıqdan sonra kiçik kublar hamısı bir-birindən ayrılır. Yalnız bir üzü qırmızı rənglə boyalı olan neçə kiçik kub alınar?



A) 0 B) 1 C) 4 D) 6